AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ

QƏRAR

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 2 may tarixli 140 nömrəli Qərarı ilə təsdiq edilmiş "Məhkəmə Ekspertlərinin Reyestrinin aparılması Qaydaları"nda dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 2 may tarixli 140 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 5, maddə 707 (Cild I) ilə təsdiq edilmiş "Məhkəmə Ekspertlərinin Reyestrinin aparılması Qaydaları"nın 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1. 2.2-ci bənddə birinci halda "1–13-cü" sözləri "1–6-cı, 8–12-ci" sözləri ilə əvəz edilsin.

2. 2.7.1-ci yarımbənd üzrə:

2.1. 5-ci abzasdan ", fotoşəkli (3x4 sm ölçüdə)" sözləri çıxarılsın;

2.2. 7-ci və 13-cü abzaslar ləğv edilsin.

3. 2.7.2-ci yarımbəndin 2-ci abzasından ", fotoşəkli (3x4 sm ölçüdə)" sözləri çıxarılsın.

Əli Əsədov
Azərbaycan Respublikasının Baş naziri

Bakı şəhəri, " 6 " " noyabr " 2026-cı il

№ 376